# 80-Cİ İLLƏRİN ƏDƏBİ PRELÜDLƏRİ

### "UĞURLU BAŞLANĞIC"IN İZİ

Şəfəq Məmmədovanın 80-ci illərin - söhbət keçən əsrdən gedir - Ədəbi prelüdləri adlandırdığımız məqalələrindən biri də "Uğurlu başlanğıc" adlanır

Meqapolislər böyüdükcə, şəhərə axın gücləndikcə, müşahidəçiyə elə gəlir ki, əvvəlki zamanlara nisbətən həyat daha gur axarla hərəkət edir. Əslində isə hər zamanın öz axar intensivliyi var. İqtisadiyyat gücləndikcə həyata öz təsirini daha çox göstərir. Bu təsir isə bir çox izləri yuyur, bir çox izləri mənəvi mühitə daxil edir. Şəfəq Məmmədovanın ədəbi-publisistik məqalələrini oxuyanda belə bir qənaət hasil olur ki, sanki müəllif iqtisadi savaşda mənəvi mühiti qorumaq istəyi ilə düşüncə arenasına çıxır. Mənəvi mühit iqtisadiyyatın təsiri altında bir çox ənənələrini itirsə də, özüllərdən tam ayrılmır və nə qədər ayrılmırsa, insanlar maddi basqılardan özünü daha çox mühafizə edə bilir. Şübhəsiz, Şəfəq Məmmədova da bunları yaxşı bilir və özünün orjinal düşüncələri ilə davamlı və ardıcıl olaraq - hətta bu gün də çalışır ki, iqtisadi imkanları mənəvi mühitin inkişafına yönəltməklə, həyati axarı daha da gücləndirmək mümkün olsun. Şəfəq yaxşı bilir ki, söz adamı üçün həyatı yaşarı görmək istəyi ziyalıların ümdə arzusudur. Xüsusilə də söz-sənət adamlarının. Yəqin ki, hələ ötən əsrin 80-ci illərində qələmə aldığı məqalələrində təkcə əsər haqqında danışmır, həm də yazıçının özünü də xarakterizə edirdi. "Uğurlu başlanğıc" məqaləsi onun bu istəyinə rəğmən yazılmışdı. Birinci növbədə Şəfəq Məmmədova öz məqaləsində Sadıq İbrahimov kimdir? - sualına cavab vermək istəyir. İstər-istəməz oxucuda belə bir cavabın izi ilə axıracan getmək istəyər. 70-80-ci illərin incəsənət aləmində - mədəni mühitdə həm aktyor kimi tanınırdı, həm də yazıçı kimi qələm sahibi, söz ünsiyyətlisi kimi diqqəti cəlb eləmişdi. Müvafiq ali təhsildən sonra Dövlət Dram Teatrının səhnəsində müxtəlif təbiətli rollar yaratmaqla bərabər, həm də mətbuatda hekayələri ilə çıxış edirdi. Səhnədə yaşadığı həyəcanları sanki, sözə çevirməklə təzədən insanlara qaytarmağa çalışırdı. 80-ci illərin əvvəllərində onun "Gənclik" nəşriyyatında "Gözlə məni" adlı ədəbi toplusu nəşr olunub. Sadığın ilk gənclik çağlarında İkinci Cahan müharibəsinin yaraları hələ də göynəməkdə idi. Bu yaralar tam sağalmamışdı. Hələ də insanların gözləri yolda idi. Itkinlər, ayrı-ayrı uzaq diyarlarda müxtəlif səbəblərdən yolları açılmayanların aqibəti haqqında xəbərlər gözlənilirdi. Əzizlərinin ümidləri üzülməmişdi. Həmin dövrdə hələ də Konstantin Simonovun "Gözlə məni" şeiri milyonlarla insanın ürək qapısını döyür, ümüd payı verirdi. Bu mənada, Sadıq İbrahimovun "Gözlə məni" ünvanına müraciət etməsi cəlbedici idi. Yaxşı olardı ki, Şəfəq Məmmədova elə öz zamanında "Gözlə məni"nin psixoloji köklərinə işıq salaydı.

Ədəbi mühitdə ədəbi tənqidin o zamanki qaynar arenasında tənqidçi kimi özünü təsdiq etmək əzmində olan Şəfəq Məmmədova Sadıq İbrahimovun "Gözlə məni" kitabına təkcə kitabın adının cazibəsinə görə müraciət etməyib, sanki o müraciətinin səbəbini ədəbi tənqid yaradıcılığının üslubuna uyğun olaraq, daxilən özünə verdiyi sualın cavabı ilə başlayır: "Haqqında bəhs edəcəyimiz kitabda kövrək istəklərdən, ülvi hisslərdən, müxtəlif taleli, rəngarəng xarakterli adamların həyatından bədii nümunələr toplanmışdır." Bədii nümunələrin toplanması üçün gərək yazıçının kifayət qədər yaradıcılıq yolu olsun. Topludakı janr fərqliliyi Ş.Məmmədovanın qeyd etdiyi kimi "Rəngarəng xarakterli" adamların təbiətini vermək üçün müəllifə imkan yaradır. Ümumiyyətlə, belə bir fikirə tərəfdar olmaq etiraz doğurmur ki, istedad üçün mövzu var, onu hansı janrda, formada istəyirsə ifadə edə bilər. Şəfəqin ədəbi təhlilə çəkmək istədiyi ədəbi nəşr nümunəsi də fikrimizi təsdiq edir: "Gözəl məni" "Gənclik" nəşriyyatının oxuculara təqdim etdiyi bu toplunun müəllifi Sadıq İbrahimovdur." Ümumiyyətlə, ədəbi faktda hər hansı bir əsərə, yaxud kitaba ədəbi tənqidi nəzərlə yanaşma statik deyil. Bu yanaşma dövrün temperamentindən asılı olaraq dəyişə bilər. Əgər bu gün ədəbi tənqid daha çox nəzəri məsələlərlə məşğul olursa, 70-80-ci illərdə ədəbi məhsula yanaşma daha çox ədəbi faktın təhlilini verir, oxucu və yazıçı münasibətlərini tənzimləyirdi. Görünür, elə bu səbəbdən də Şəfəq Məmmədova dövrün ədəbi-tənqidi tələbatına uyğun olaraq həm kitab, həm də müəllif haqqında müəyyən səviyyədə məlumatla oxucularını təmin etmək istəyib: "Sadıq respublika mətbuatında arasıra özünün mənsur şerləri, hekayələri ilə çıxış edir. Lakin bu neçə illərdə öz yaradıcı axtarışlarını dərinləşdirib, dolğunlaşdırandan sonra oxucularına ilk kitabını təqdim etməyə cəsarətlənib." Bu qeydlərdən öyrənirik ki, Milli Dram sənətimizin inkişafında öz xidmətlərini göstərmiş sənətkar kimi o, yazılarını çap etdirməyə tələsməyib. Söz onun təbiətində, varlığında sanki, fəslə uyğun çiçəkləyən ağac kimi görünüb.

Şübhəsiz, 40 yaşa qədər insan daxili mənəvi mühitində çarpışmalardan keçir. Sanki, həyatı biləndən sonra, həyatın nə istədiyini dərk edəndən sonra, öz missiyasının icrasına bütün varlığı ilə qoşulur. Xalqın özünü hifz etmə, milli özünüdərk yolunda ədəbiyyatın yeri və rolunu Ulu Öndər çox dəqiq bir tezislə belə ifadə edirdi: "...Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir". Şəfəq Məmmədova Sadıq İbrahimovu yazıçı kimi təqdim edərkən, onun bir ziyalı olaraq, geniş və çoxşaxəli fəaliyyətinə də işıq salır: "Sadıq İbrahimov yazıçıdan əvvəl özünü aktyor kimi tanıdıb. O, Azərbaycan Dövlət Akademik Dram Teatrında, televiziya tamaşalarında neçə-neçə bənzərsiz, yadda qalan obrazlar yaratmış, onlara həyat vermişdir. Onun aktyorluq sənətilə nasirliyi arasında bir qəribə oxşarlıq, uyarlıq da var. O, səhnədə böyük-kiçikliyindən asılı olmayaraq oynadığı bütün rollarına həssaslıqla, məsuliyyətlə yanaşır. Tamaşaçılara bütöv, bitkin obrazlar təqdim edir. Sadıq yazıçı kimi qələmə aldığı kiçik bir hadisəni, qısaca mətləbi ustalıqla, özü də özünəməxsus üslub tərziylə təsvir edir, dolğun, bütöv xarakterlər yaradır. Bir yazıçı inadıyla obrazların daxili aləmini, düşüncə tərzini, obyektə münasibətini hərtərəfli verir, aça bilir". İnsafən, Şəfəq Məmmədovanın bu düşüncələri kifayət qədər məzmunludur. Ancaq, daha çox hökmlər üzərində qurulub. Yaxşı olardı ki, müəllif yazıçının uğurunu təsdiq edən maraqlı bədii lövhələri mətnə gətirəydi. Doğrudur, Şəfəq burada Sadıq İbrahimovun yazıçı və aktyor obrazlarını da müqayisə edir. Bu tərəfləri bir-birinə qarşı qoymur. Sadıq İbrahimovun yazıçılığını onun aktyorluğunun davamı kimi təqdim edir. Yəqin ki, Şəfəqin dövrünə görə müşahidə etdiyi tamaşalardakı rolların üzə çıxmayan, görünməyən tərəfləri müəllifin hekayələrində reallaşır. Şəfəq də yazıçı-aktyor bağlılığında, varisliyində bu keyfiyyətləri vermək istəyir. Yaxşıdır ki, tənqidçi müəllifi obraz yaradıcılığında, psixoloji cəhətdən necə qavrayırsa, elə də verir. Sadıq İbrahimovun yaradıcılığının diqqəti cəlb edən tərəflərini müəllif elə ümumiləşdirir ki, biz yazıçı ilə tənqidçinin mənəvi doğmalığından yaranmış mühakimələri öz düşüncələrimiz kimi qəbul etməli oluruq: "Sadıq oynadığı, səhnədə canlandırdığı rolları tamaşaçıya öz səsiylə, öz boyasıyla təqdim etdiyi kimi, qələmə aldığı adamları da kölgəsiz, açıq təsvir edir.

Oxucu hekayələrdə təsvir olunan bağ-bağçanı, çayları, ormanları, eyni zamanda, bu gözəlliklərin yaradıcısı, onlara həyat, isti nəfəs verən adamları görür, duyur. Gözləri qarşısında görürmüş kimi, təfəkküründə canlandıra bilir. Açıq, işıqlı təsvir, hadisələrə iti baxışla, kəsərli bir dillə müdaxilə etməsi, Sadıq İbrahimovun yardıcılığında diqqəti cəlb edən qabarıq cəhətlərdəndir". Bu qabarıq cəhətlər şübhəsiz, birinci növbədə, kitaba toplanmış hekayələrin mövzusu ilə bağlıdır. Müəllifin qeyd etdiyi kimi, "Gözlə məni" kitabında yazıçının müxtəlif mövzulu mənsur şerləri, miniatur hekayələri toplanıb. Bu hekayələri bütöv bir mənzərə kimi qavrayanda həm maraqlı suallar meydana çıxır, həm də bu sualların cavabları.

Əvvəllərdə qeyd etmişik, Şəfəq Məmmədovanın ədəbi tənqidi, publisistik yaradıcılığında mükalimə motivi çox güclüdü. Sanki o, özü-özü ilə dialoq qurur, polemika aparır, mübahisə açır, yazmaq istədiyi mətləbi də özü-özü ilə apardığı polemikada qarşıya çıxan suallara cavab kimi aşkarlayır. Düşünmək olar ki, Şəfəqin ədəbi tənqidi publisistik yaradıcılığının canlılığını təmin edən əsas amillərdən biri də elə onun polemik ruhda yazmaq marağı ilə bağlıdır. O, bu üslubdan yetərincə bəhrələnə bilir. Yeri gəlmişkən, daha bir nümunə, sual qoyulur, arxasınca da aydın cavab verilir: " Qaynar, təlatümlü bir yazıçı kimi Sadığı hansı problemlər narahat edir? Kitabı vərəqlədikcə narahat qəlbli, ayıq müşahidəli yazıçının dünyasını və bu dünyanın adamlarını tanıyırıq. Sadıq bu dünyada onu narahat edən çox mətləblərə toxunub. Özü də toxunduğu məsələləri açmaq, aydınlaşdırmaq üçün səhifələr həsr etməyib, mövzunu uzatmayıb. Az sözlə bütöv fikir ifadə edib, qısaca təsvirlə oxucunun gözləri qarşısında həyatın əsas bir parçasını işıqlandıra bilib. Gərgin, haçalı fikirlərin düyününü aça bilib". Əslində elə Şəfəqin özünün də ədəbi-tənqidi məqalələrindəki yığcamlıq təfərrüata varmamaqdan irəli gəlir. O, hər bir halda yığcam fikir, aydın mühakimə ilə yazıçının qələmə aldığı mövzunun mahiyyətinə işıq sala bilir. Çünki, yazıçı da hər hansı bir əsəri ilə həyatın hansısa bir tərəfini işıqlandırmaq istəyib. Şəfəq isə oxucunun diqqətini məhz yazıçının işıqlandırdığı tərəfə yönəldir. Düşünmək olar ki, bəlkə də elə bunu özünün əsas missiyası hesab edir.

Yazıçı ayrı-ayrı zamanları ustalıqla xarakterizə edə bilər, müqayisəyə çəkə bilər. Amma, bu müqayisə mühitə, oxucuya nə verir? Düşünmək olar ki, ədəbi əsəri təhlil edən müəllif oxucuya çatan mənəvi payın nədən ibarət olduğunu aça bilirsə, deməк yazıçının alt qatdakı düşüncələrinə varmaq imkanına malikdir. Şəfəq Məmmədova yazıçının "Gözlə məni" kitabına toplanmış bir çox əsərlərinin adlarını çəkir: "Müharibə dövrüylə indiki həyatımızın müqayisəli təsiri onun yaradıcılığında əsas yer tutur. "Atam əsgər gedəndə", "Sədəfli saz", "Gözlə məni", "Əlvida, gedirəm", "Həkim qız", "A qızlar!", mənsur şeir və hekayələr bu qəbildəndir." İndi Sadıq İbrahimovun həyatda olmadığı bir vaxtda onun əsərlərinin adlarını yada salmaq, onun haqqındakı qeydləri nəzərdən keçirmək təkcə ədəbi dəyər deyil, bu həm də bizdən əbədi ayrılmışlara bir ehtiram borcumuzdur. Çox güman ki, Sadıq İbrahimovun yaradıcılığı haqqında və xüsusilə "Gözlə məni" kitabı haqqında Şəfəq Məmmədovanın bu qeydləri ya ilkdir, ya da ilklərdən biridir. Deyə bilmərəm ki, sonralar Sadıq İbrahimovun yaradıcılığı ədəbi tənqidin diqqətində nə dərəcədə olub, ya olmayıb, amma hər halda bu gün onu bir sənətkar kimi xarakterizə edən məlumat zənginliyinə görə Şəfəq Məmmədovanın bu məqaləsidir. Sanki, yazıçı onun hekayəsini tənqid edən tənqidçidən umur ki, qalan yazıları haqqında da fikir söyləsin. Elə bil ki, uzun illərdən sonra Şəfəqin yazısının davamını ruhların istəyinə cavab kimi oxuyuruq: "Sadıq İbrahimovun kitabda verilən "Cəsarət", "Körpə istəyi", "Müqəvva quş", "Qarışqalar" hekayələrində müəllif gənclərin, uşaqların daxili aləmini həssas, qayğıkeş bir insan məsuliyyətilə açmışdır." Bəli, heç olmasa, müəllif öz sağlığında bir məqalənin təsir dairəsi imkanında bədii yaradıcılığın ədəbi qiymətini alır. Söz var ki, deyirlər: "Yazıya pozunun olmadığı hökmünü uğurlu başlanğıcda və uğurlu başlanğıcın az qala yaddaşlardan silinməkdə olan izində də görmək olar. Hansı hissin təsirilə, biz Şəfəq Məmmədovanın ədəbi-tənqidi düşüncələrindən çıxış taparaq Sadıq İbrahimovu da yada saldıq.

Həqiqətən, söz-sənət sahibi kimi o kəslərin yaddaşlarda yaşamaq haqqı var ki, onlar insan hisslərinin dərinliklərinə enə biliblər. Axı xüsusi məşqlər və vasitələr olmadan suyun dibinə, dənizin dibinə, okeanın dibinə qədər enmək nəinki çətindir, bəlkə, heç mümkün də deyil. Yazıçı isə insan hisslərinin ümman dərinliyinə enibsə, onun yaşamaq haqqı var. Kimsə, nə vaxtsa bu dərinliyə enməlidir və enməli olacaqdır. Axı, o dərinliklərdə ekzotika var, qeyri-adiliklər var, insan mənəviyyatının asanlıqla anlaşılmayacaq sirləri var. Düşünmək olar ki, Şəfəq Məmmədova Sadıq İbrahimovun yaradıcılığına müraciət edərkən tədqiqatçı istəyinin qarşısı alınmazlığı ilə yazıçı aləminin də dərinliyinə baş vurmaq istəyib. Və bu zaman görüb ki, Sadıq İbrahimovun böyük potensialı var, düşüncə imkanları var. Yəqin ki, elə bunu nəzərə alaraq yazır: "Hadisələrə həssaslıqla, dərindən yanaşması, bədii priyomlardan ustalıqla, yerində istifadə etməsi imkan verir deyək ki, Sadıq öz qələmini irihəcmli əsərlərdə də sınaya bilər". Zamanına görə doğru yazıb. Bəs bu günün necə? Sadıqdan nə qalıb? Hansı yaradıcılıq örnəkləri qalıb? Təəssüf ki, əlavə məlumatları əldə etmək mümkün olmadı. Belə məqamlarda tədqiqatçı bir qərinə əvvəl yazdığına yenidən qayıtsa, çox dumanları dağıda bilər. Bugünkü oxucuya Sadıq İbrahimovun yenidən tanıdılması baxımından belə bir qayıdış faydalı ola bilərdi.

*2019*